# Məsul şəxslər, İslam ölkələrinin səfirləri və müxtəlif təbəqələrdən olan bir qrupun görüşü - 31 /Mar/ 2025

İslam İnqilabının Ali Rəhbəri bu gün səhər dövlətin məsul şəxsləri, İslam ölkələrinin səfirləri və xalqın ayrı-ayrı təbəqələrdən olan nümayəndələri ilə görüşdə qeyd etdi ki, İslamın gündən-günə artan izzəti, böyük güclərin zorakılığı və bac-xərac tələblərinə qarşı mübarizə İslam ümmətinin birliyi və bəsrəti ilə şərtlənir. O, İran İslam Respublikasının bütün İslam ölkələrinə qardaşlıq əlini uzatmasının zəruriliyini vurğulayaraq dedi: "Sionist rejim və onun hamilərinin Fələstində və Livanda törətdikləri misilsiz cinayətlərə qarşı effektiv mübarizə aparmaq üçün İslam ölkələrinin vəhdəti, həmrəyliyi və dil birliyinin olması şərtdir”.

Həzrət Ayətullah Xamenei bu görüşdə İslam ümmətini və İran xalqını Mübarək Ramazan bayramı münasibətilə təbrik edərək, bu bayramın İslam dünyasının bir-birinə yaxınlaşmasına, İslam və əziz Peyğəmbərin izzətinin gündən-günə artmasına səbəb olan birləşdirici nöqtələrdən biri olduğunu dedi: "İslamın izzətinin gündən-günə artması üçün İslam ümmətinin birliyi, əzmkarlığı və bəsirəti lazımdır".

O, dünyada bir-birinin ardınca çox sürətlə baş verən hadisələrə işarə edərək dedi: "İslam ölkələri bu sürətli hadisələrə qarşı hansı mövqedə dayanmalı olduqlarını sürətlə və diqqətlə müəyyən etməli, düşünməli və proqramlar hazırlamalıdırlar".

İnqilabın Rəhbəri müsəlman əhalinin çoxluğu, zəngin təbii sərvətlərə malik olmanın və dünyanın həssas coğrafiyasında yerləşmənin İslam dünyasının mühüm fürsətlərindən biri olduğunu bildirdi: "Bu fürsətlərdən və həssas mövqelərdən istifadə etmək üçün İslam dünyasının birliyi vacibdir. Təbii ki, birlik deyilərkən dövlətlərin birləşməsi və ya bütün siyasi baxışlarda eyni düşünmələri deyil, ümumi maraqları tanımaq və öz maraqlarını aralarında ixtilaf, münaqişə və qarşıdurmaya səbəb olmayacaq bir şəkildə müəyyənləşdirmək nəzərdə tutulur".

O, İslam dünyasının bir ailə olduğunu vurğulayaraq İslam hökumətlərinin bu baxışla düşünməli və fəaliyyət göstərməli olduqlarını dedi: "İslam Respublikası əlini bütün İslam ölkələrinə uzadıb, özünü onlara qardaş bilir, ümumi və əsaslı bir cəbhədə onlarla bir olduğunu hesab edir".

Həzrət Ayətullah Xamenei İslam dövlətlərinin əməkdaşlığı və həmfikir olmasının işğalçı və zalım güclərin təcavüzünə, zorakılığına və bac tələbələrinə qarşı maneə olduğunu vurğuladı: "Bu gün, təəssüflər olsun ki, zəif dövlətlərdən və xalqlardan bac istəmək və tələb etmək böyük güclər üçün adi və aşkar bir hal alıb. Bunun qarşılığında biz İslam ölkələri İslam dünyasının hüquqlarını müdafiə etməli, ABŞ və digər dövlətlərin bac tələbinə icazə verməməliyik".

O, Fələstin və Livanın sionist rejim və onun havadarlarının cinayətlərindən yaralandığına işarə edərək İslam dünyasının bu əziyyətlər qarşısında möhkəm dayanmasının vacibliyini vurğuladı: "İslam dövlətlərinin vəhdəti, həmrəyliyi və dil birliyi olarsa, başqaları qorxub öz əməllərindən əl çəkərlər. Ümid edirik ki, İslam ölkələrinin məsul şəxsləri öz əzmkarlığı, motivasiyası və hərəkəti ilə İslam ümmətini həqiqi mənada formalaşdıra biləcəklər".

Görüşün əvvəlində Prezident cənab doktor Pezeşkiyan qeyd etdi ki, izzət, başıucalıq, vəhdət, güzəşt, qardaşlıq və məzlumlara yardım Ramazan ayının müsəlmanlar üçün olan ən mühüm dərsləridir. O, İslam ölkələrinin səfirlərinə müraciət edərək bu günün İslam dünyasının vəzifəsinin ixtilafları bir kənara qoymaq, sionist rejim və İslam düşmənlərinə qarşı bir yumruq kimi birləşmək olduğunu dedi: "İslam Respublikası bütün İslam ölkələrinə dostluq və qardaşlıq əli uzadır".

Cənab Pezeşkiyan çıxışının başqa bir hissəsində ilin şüarına işarə edərək dedi: "Hökumət cari ildə “istehsala investisiya” şüarını həyata keçirmək üçün var gücü ilə çalışmalıdır”.

Prezident düşmənin İran İslam Respublikasının zəifləməsi ilə bağlı dezinformasiya yayması və psixoloji mübarizə aparmasına işarə edərək vurğuladı: "Müsəlman xalqlar Allaha güvəndikləri üçün heç vaxt zəifləməyəcəklər".

**Materialdan istifadə edərkən WWW.LEADER.İR saytına istinad zəruridir**